# “Fiziki şəxslərin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması üçün müraciət”in təqdim olunması elektron xidmətinin İstifadəçi təlimatı

**“Fiziki şəxslərin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması üçün müraciət”** ərizəsinin təqdim olunması üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA imza;

- Şəxsiyyət vəsiqəsində əks olunmuş FİN, seriya və nömrə və mobil telefon nömrəsi;

Növbəti mərhələdə açılan yeni pəncərədə “Fiziki şəxslərin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması üçün müraciət” ərizəsi seçilir və “Ərizəni göndərmək” düyməsi sıxılır.



Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istənildikdə ekranda qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni ərizə forması yaratmaq istənildikdə isə **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Müvafiq seçim edildikdən sonra açılmış ərizə formasında əks olunan **“Siyahıya qayıt”** düyməsi sıxıldıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsi sıxılmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsi sıxılmaqla yaradılmış ərizə formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsi sıxılmaqla yaradılmış ərizə formasını yadda saxlamaq mümkün olur.







Açılan ekranda  “Müraciət növü” bölməsi üzrə vətəndaşa 2 seçim imkanı təqdim edilir.

1. “Müraciət növü” **“Qaimə ilə müraciət”** seçildikdə “Ümumi məlumatlar bölməsi”nin “ƏDV qaimə” xanası üzrə verilmiş müvafiq qaimə seçimi edilir və bu zaman digər məlumatlar avtomatik olaraq əks etdirilir.



2. Müraciət növü “**Tam məbləğdə HÖP-dən edilməyən ödənişlər üzrə müraciət**” seçildikdə “Alqı-satqı müqaviləsinin tarixi”, ”Satıcının VÖEN-i” və “Yaşayış və qeyri-yaşayış üzrə ümumi dəyər (ƏDV daxil)” xanaları üzrə müvafiq məlumatlar daxil edilir. “ƏDV məbləği” xanası üzrə məlumat isə avtomatik əks etdirilir.




Məlumatlar daxil edildikdən sonra **“Ödənişi tam etdiyimi təsdiq edirəm”** çekboksu üzrə seçim edilməlidir.



“Müraciət növü” bölməsi üzrə edilmiş seçimə uyğun müvafiq məlumatlar daxil edildikdən sonra qaytarılacaq ƏDV məbləğinin köçürüləcəyi bank hesabı üzrə seçimin edilməsi üçün “Köçürüləcək bank hesabı” bölməsi üzrə müvafiq bank seçilir.




Növbəti düyməsi sıxıldıqdan sonra açılan yeni pəncərədə “Yaşayış və qeyri-yaşayış sahələrinin alınmasına dair alqı-satqı müqaviləsinin surəti” və “Bank ödəniş sənədləri” sənədlər əlavə edilməlidir.




Sonda müvafiq məlumatlar daxil edildikdən sonra ərizənin göndərilməsi üçün “Təqdim edilən sənədlərin həqiqiliyi barədə məsuliyyət daşıyıram” çekboksu üzrə seçim edilir.



Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “Növbəti” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.



“Növbəti” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi sıxılaraq yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdıla bilər.




Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə "Bildiriş" ekranda əks olunur. Həmin pəncərədə **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **"Bağla"** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.




İstifadəçi tərəfindən göndərilən "Fiziki şəxslərin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldıqları yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması üçün müraciət" ərizəsi "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

